*“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 27 sentyabr 2014-cü il | № 74 (1891) | Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttinə bitişik ərazilərdə təhlükəsizlik tədbirlərini gücləndirmək, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə məlumatların, eləcə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət sirri təşkil edən hərbi sahəyə aid digər məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaq məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Müdafiə məsələləri üzrə əlaqələndirmə şuralarının yaradılması və hərbi birliklərə, hissələrə hamilik haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 9 yanvar tarixli 667 nömrəli Fərmanına uyğun olaraq yaradılan müdafiə məsələləri üzrə əlaqələndirmə şuraları Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttinə bitişik ərazilərdə (bundan sonra - cəbhəboyu zona) müdafiənin möhkəmləndirilməsi, habelə əhalinin ayıq-sayıqlığının artırılması məqsədi ilə həmin zonada yerləşən yaşayış məntəqələrində yerli əhali arasından könüllülərdən ibarət patrul dəstələrinin formalaşdırılması üçün zəruri tədbirlər görsünlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. 1994-cü ildə qəbul olunmuş "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun (o cümlədən cəbhəboyu zonada hərbi hissələrin yerləşdiyi ərazilərdə rejimin xüsusiyyətlərini nəzərdə tutan) yeni redaksiyasını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bir ay müddətində:

2.2.1. "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.2. jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası:

3.1. cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında qoşunların dislokasiyası, hərbi-siyasi və əməliyyat şəraiti, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi barədə izahat işini təşkil etsin;

3.2. mərkəzi icra hakimiyyəti orqanları ilə birlikdə həmin orqanların mətbuat xidmətləri tərəfindən hərbi-siyasi və əməliyyat şəraitinə dair məlumatların yayılması üçün internet informasiya ehtiyatlarının, o cümlədən sosial şəbəkələrin imkanlarından daha səmərəli istifadə edilməsini, bu məqsədlə mətbuat xidmətlərinin işçiləri üçün müvafiq təkmilləşdirmə kurslarının təşkilini təmin etsin.

4. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

4.1. cəbhəboyu zonadakı vəziyyət barədə məlumatların əhaliyə çatdırılması ilə bağlı nazirliyin mətbuat xidmətinin fəaliyyətinin çevikliyini artırmaq üçün tədbirlər görsün;

4.2. kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqini təmin etsin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyən edib onların qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunmasını təşkil etsin.

5. Azərbaycan Mətbuat Şurasına tövsiyə olunsun ki, hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədi ilə kütləvi informasiya vasitələri və əhali arasında təbliğat-izahat işini təşkil etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 sentyabr 2014-cü il.

# Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları ilk dəfə F-16 təyyarələrində uçuşlar keçirirlər




***24 sentyabr 2014-cü il.***

Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin birgə təlimləri davam edir.

Bu gün təlimlərdə iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları ilk dəfə olaraq ikiyerli döyüş-təlim F-16 tipli qırıcı təyyarələrində Türkiyə pilotları ilə birgə uçuşlar yerinə yetiriblər.

Təlim uçuşları zamanı pilotların bu tip təyyarələrin idarə olunması üzrə peşəkar bacarıqları və uçuş heyətinin ümumi hazırlığı yoxlanılıb.

Hərbi Hava Qüvvələrinin təlimləri oktyabrın 3-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabının müzakirəsi keçirilib

Sentyabrın 24-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix" kitabının müzakirəsinə həsr edilən tədbir keçirilib.

AzərTAc xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov tədbirdə çıxış edərək kitab haqqında ətraflı məlumat verib. Bildirilib ki, bu günlərdə Moskvada rus dilində çap olunan bu kitabda bütün faktlar, məlumatlar ilk mənbələrdən toplanılıb. Qeyd edilib ki, sırf elmi tədqiqat əsəri olan kitabda ermənilərin regionda yaratdıqları problemlər, törətdikləri faciələr, onların tarixi, bu günü haqqında məlumatlar kifayət qədər əsaslı şəkildə araşdırılaraq faktlarla göstərilib. Maraqlısı odur ki, nəşrdə hətta ermənilərin yazdığı tarixdən də istinadlar yer alıb. Bütün bu faktlar ermənilərin saxtakarlıqlarını, iç üzlərini açıq şəkildə göstərir.

Akademik Ramiz Mehdiyevin onlarla kitabın müəllifi olduğunu deyən Baş nazirin müavini bildirib ki, bu kitablardan bir neçəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edir.

Bütün bu kitablar tarixdir və gələcək nəsillər onlardan bəhrələnəcəklər.

Hələ sovet hakimiyyəti illərindən Azərbaycan xalqının düzgün tarixi öyrənmək baxımından müəyyən çətinliklər çəkdiyini xatırladan Əli Həsənov ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu məsələlərə də ciddi diqqət yetirildiyini bildirib. Qeyd edilib ki, məhz ümummilli liderin tapşırığı ilə demək olar ki, Azərbaycanın son 200 ilinin tarixi yenidən yazılıb. Bu siyasət Prezident İlham Əliyevin hakimiyyəti dövründə də davam etdirilir.

Baş nazir qeyd edib ki, nəşrdə Ermənistanın son dövrlərdə düşdüyü acınacaqlı vəziyyətdən, orada geniş vüsət almış ölkəni tərketmə prosesindən də söhbət açılır. Diqqətə çatdırılır ki, son 10-15 ildə Ermənistanda dünyaya gələn uşaqların sayı iki dəfə azalıb.

Əli Həsənov qeyd edib ki, bir tərəfdən əhalinin ölkəni sürətlə tərk etməsi, digər tərəfdən dünyaya gələn uşaqların sayının azalması Ermənistanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoyub.

Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov deyib ki, tutarlı faktlara, fəlsəfi təhlillərə əsaslanan bu sanballı əsərdə çoxsaylı ilkin mənbələrə və elmi ədəbiyyatlara istinadlar olunub. Araşdırmanın üstünlüklərindən biri də odur ki, əsərdə bütünlüklə xarici məxəzlərdən istifadə edilib. Müəllif faktlara əsaslanmaqla ermənilərin Qafqaz regionunda heç vaxt dövlətinin olmadığını sübut edir.

AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, Milli Məclisin deputatı Aytən Mustafayeva satqınlıq, ikiüzlülük kimi xarakterlərin erməni millətinin xüsusiyyəti olduğunu deyib. O qeyd edib ki, bu kitabın yazılması ermənilərin saxtakarlıqlarının ifşa olunması ilə bağlı atılmış mühüm addımdır.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Milli Məclisin deputatı Bəxtiyar Əliyev bildirib ki, bu kitab Azərbaycan tarixi üçün çox önəmli bir əsərdir. Bəzən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sivilizasiyaların, dinlərin toqquşması kimi qələmə verməyə çalışırlar. Prezident İlham Əliyev dəfələrlə bəyan edib, beynəlxalq ekspertlər də hər dəfə vurğulayırlar ki, Azərbaycan bütün dünya üçün tolerantlıq nümunəsidir. Bu kitabda əksini tapan dəyərli faktlar münaqişəni sivilizasiyaların toqquşması kimi qələmə verməyə çalışanlar üçün elmi surətdə əsaslandırılmış bir cavabdır.

Tədbirdə Prezident Administrasiyasının, Nazirlər Kabineti Aparatının nümayəndələri, Milli Məclisin deputatları, əraziləri işğal olunmuş rayonların icra hakimiyyəti başçıları iştirak ediblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Sentyabrın 23-də saat 14.30 radələrində erməni silahlı bölmələri atəşkəs rejimini növbəti dəfə pozaraq mövqelərimizi atəşə tutublar.

Döyüş mövqeyində təhlükəsizlik qaydalarını pozduğundan Silahlı Qüvvələrimizin 1995-ci il təvəllüdlü, Ağstafa rayonundan hərbi xidmətə çağırılmış əsgəri Şəbiyev Kəramət Şəmkir oğlu düşmən tərəfindən atılan snayper atəşindən həlak olub.

Hadisə ilə bağlı cinayət işi başlanıb. Hərbi Prokurorluq tərəfindən faktla əlaqədar araşdırma aparılır.

* * *

Sentyabrın 23-də saat 13.20 radələrində Silahlı Qüvvələrimizin 1996-cı il təvəllüdlü,Yevlax rayonundan hərbi xidmətə çağırılmış əsgəri Sadıqov Pərviz Vidadi oğlu infeksion-toksiki şok, hemorragik vaskulit, visseral forma, ildırım sürətli gedişli diaqnozu ilə Silahlı Qüvvələrin Baş Kliniki Hospitalına daxil olub.

Həkimlərin səyinə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb və xəstə saat 15.35 radələrində vəfat edib.

Hadisə ilə bağlı cinayət işi başlanıb. Hərbi Prokurorluq tərəfindən faktla əlaqədar araşdırma aparılır.

Müdafiə Nazirliyinin rəhbərliyi dünyasını dəyişmiş əsgərlərimizin valideynlərinə və doğmalarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

* * *

***25 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Sarıcalı, Kəngərli və Baş Qərvənd kəndləri yaxınlığında yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

***26 sentyabr 2014-cü il.***

Erməni silahlı bölmələri dünən və bu gecə Ağdam rayonunun Yusifcanlı, Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Tərtər rayonunun Çiləbürt kəndləri yaxınlığında, Xocavənd və Goranboy rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

# Səngər - əsgərin alınmaz qalası

**Ali Baş Komandan İlham ƏLİYEV:**
**“Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir".**

## Ən güclü silah ən hazırlıqlı əsgərdir



***Azərbaycan Ordusunun ilk əsgərlərindən olmuşam, qanlı-qadalı illərdə Füzuli bölgəsində gedən döyüşlərdə iştirak etmişəm. O zaman ordumuzda peşəkar zabitlərin az olmasına təəssüflənirdim. Elə buna görə də əsgəri xidmətimi başa vurduqdan sonra taleyimi hərbə bağlamaq qərarına gəldim və sənədlərimi indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verdim. İlk dəfə zabit rütbəsi aldığım günü bu gün də sevinclə xatırlayıram. Əslində ailənin sonbeşiyi olduğuma görə qohumlarım arasında seçimimə görə təəccüblənənlər də oldu. Amma o zaman valideynlərimə bir söz demişdim: "Hər ana Vətənə bir oğul verməlidir".***

Hərbi xidmətimin böyük hissəsi cəbhə bölgəsində keçib. Bütün çətinliklərinə baxmayaraq ön xətdə xidmət etmək hər bir zabit üçün əsl sınaq dövrüdür. Ordu sıralarına çağırılan gəncləri Vətənin müdafiəsi üçün döyüş növbətçiliyinə hazırlamaq komandirin əsas vəzifəsidir. Amma bu çətin və məsuliyyətli vəzifəni yerinə yetirmək üçün əsgərlərdən həm yüksək döyüş hazırlığı, həm də Vətən sevgisi tələb olunur. Müdafiənin ön xəttində döyüş növbəsində dayanan əsgərə izah edilməlidir ki, onun qarşısında Vətənin qorunmasına cavabdeh olmaq kimi ciddi vəzifə dayanır.

Şəxsi heyətimiz düşmənlə təmas xəttində yerləşən strateji əhəmiyyətli yüksəklikləri qoruyur. Hər dəfə məşğələ və təlimlərdə, əsgərlərimizlə apardığım fərdi söhbətlərdə qarşımızda dayanan döyüş tapşırığının nə qədər məsuliyyət tələb etdiyini izah edirəm.

Məlum avqust hadisələri zamanı hərbi bölmələrimizin şəxsi heyəti döyüşə hazırlıq vəziyyətinə gətirilmişdi. Hər bir əsgərimiz düşmənin istənilən təxribatının qarşısını almağa qadir idi. Başqa bölgələrdə ordumuzun əsgər və zabitləri tərəfindən düşmənə layiqli cavab verilməsi bizi də döyüşlərə atılmağa ruhlandırmışdı. Hər bir şəhidimizin qisasını düşməndən almağa hazır idik.

Həmin hadisələr zamanı Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dərhal cəbhə bölgəsinə gəlməsi döyüş ruhumuzu daha da artırmışdı. Bir daha yəqin etdik ki, ordu rəhbərliyi öz əsgərinin yanındadır. Həmçinin bu hadisələrdən sonra dövlət başçımızın Ağdam rayonuna səfəri və müdafiənin ön xəttində döyüşçülərlə görüşməsi, fədakarlıq göstərmiş hərbi qulluqçuları mükafatlandırması hərbi kollektivimizə xoş ovqat aşılamışdı. Prezident, Ali Baş Komandan İlham Əliyev döyüşçülərlə söhbətində bildirdi ki, Vətənimizin müdafiəsində dayanan hər bir əsgər və zabitin əməyi ən yüksək hörmətə və qiymətə layiqdir.

Düşmən artıq əsgərlərimizin hazırlığına, ordumuzun artan qüdrətinə yaxşı bələddir və buna görə də heç vaxt torpaqlarımıza basqın etməyə cürəti olmayacaqdır.

**Mais MİRZƏYEV,**
**"N" hərbi hissəsinin zabiti**

## Qayğı və diqqət olan yerdə...



***Azərbaycan əsgəri adını şərəflə daşıyan gənclərimiz hərbi xidmət dövründə döyüş vərdişləri qazanmaqla Vətənimizin etibarlı müdafiəçiləri kimi yetişirlər. Orduda komandirlərin də elə əsas vəzifəsi əsgərlərimizi bacarıqlı və peşəkar döyüşçülər kimi hazırlamaqdır. Bu məqsədlə şəxsi heyətin təlim-tərbiyəsində müasir metod və üsullardan istifadə etməyə önəm veririk. Bir bölük komandiri olaraq qazandığım hərbi təcrübəyə istinadən demək istərdim ki, əsgərə göstərilən diqqət və qayğı onu nümunəvi xidmət etməyə ruhlandıran əsas amillərdən biridir.***

Şübhəsiz, ön xətdə çətin və ekstremal şəraitdə Vətənə övlad borcunu yerinə yetirən əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti bölmə komandirlərinin üzərinə düşür. Komandir əsgərin güvənc yeridir, deməli, əsgər hər addımda öz komandirinə inanmalıdır. Əslində təhlükəli mövqelərdə döyüş tapşırığını yerinə yetirmək vəzifəsi komandirlə əsgəri eyni bir amal ətrafında birləşdirir və bu həmrəylik döyüşçü birliyinin yaranmasına gətirib çıxarır. Belə olan halda əsgər də öz komandirinə bir qardaş, sirdaş münasibəti bəsləyir. Onların arasındakı rəsmi münasibət həm də çətin gündə sınaqdan çıxan komandir-əsgər dostluğuna çevrilir.

Günün istənilən vaxtında, gecə-gündüz ön xətdəyəm və döyüşçülərimizlə sıx təmas yaradıram. Çalışıram ki, hər bir əsgər ürəyindəki arzusunu, sözünü və problemini məndən gizli saxlamasın. Hansı əsgərimizin ailə vəziyyətində problemi yaranırsa, onunla fərdi söhbət aparıram, üzləşdiyi problemi birlikdə müzakirə edirik. Bu zaman artıq əsgərin yaxın dostu oluram. Belə münasibət əsgərin ürəyinə təpərdir, düşünür ki, komandiri onu problemi ilə tək buraxmır, ondan ötrü narahatlıq keçirir. Bax, belə münasibət şəxsi heyətdə inam və etibar hisslərini gücləndirir.

İnam asanlıqla qazanılmır, bundan ötrü, sözün həqiqi mənasında, komandir öz tabeliyindəki əsgərlərin hörmət və etibarını qazana bilməlidir. Bir bölük komandiri kimi əsgərlərimizin bütün gündəlik qayğıları ilə məşğul oluram. Şəxsi heyətin keyfiyyətli qidalanmasından tutmuş geyiminə, fiziki hazırlığına və digər məsələlərinə dərindən diqqət göstərirəm. Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən bu gün orduda həyata keçirilən mühüm islahatlar, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını artırmaq üçün görülən önəmli tədbirlər ürəyimizdəndir. Artıq ucqar döyüş postunda belə əsgərlərin məişəti ilə bağlı narahatlıq yaranmır. Hər bir məsələ ordu rəhbərliyinin, komandanlığın diqqət mərkəzindədir. Belə yüksək diqqət və qayğı isə hər birimizdə xoş əhval-ruhiyyə yaradır. Biz söz vermişik ki, qarşımızda dayanan mühüm döyüş vəzifəsini yerinə yetirmək üçün son nəfəsimizə qədər qüvvəmizi əsirgəməyəcəyik.

**Baş leytenant**
**Orxan KƏRİMOV,**
**bölük komandiri**

## “Həm aşpazam, həm də döyüşçü”



***Çağırış ərəfəsində tay-tuşlarımla söhbətləşirdik. Bir dəfə əsgərlikdən təzə gəlmiş qonşumuz da söhbətimizə qoşuldu. Elə maraqlı söhbətlər eləyirdi ki, dinləməkdən doymurduq. Arada onu da bildirdi ki, hərbi hissənin aşpazı olub: "Əsgərlər mənim bişirdiyim yeməyi böyük iştaha ilə yeyirdilər". Ürəyimi, nəsə, anlaşılmaz bir duyğu bürüdü. Heç kimə heç nə demədim...***

Hərbi xidmətə başlayanda bizdən kimin nəyə marağı olduğunu soruşdular. Onda aşpaz olmaq istədiyimi bildirdim. Məni aşpazlıq kursuna göndərdilər. Oxudum, öyrəndim. Adamın qanında-canında maraq, həvəs olmasa, heç nəyi tam, mükəmməl öyrənə bilməz.

Bişirdiyim yeməklər əsgərlərimizin xoşuna gələndə, düzü, özümdən razı qalırdım. Yadıma müəllimimin dediyi sözlər düşürdü: "Əziyyətin kimisə razı salırsa, deməli, sən gərəkli adamsan".

Hərbi xidmətim başa çatdı. Tərxis olundum. Lakin rahatlığımı itirmişdim. Hərbi xidmətə elə bağlanmışdım ki. Həm də kəndimizin müdafiəsində qanuni dayanmaq istəyirdim. Tovuz rayonunun Ağdam kəndindənəm. Yenə döyüşçülərlə bir sırada olmaq istəyirdim. Bir gün hərbi hissənin komandanlığına müraciət elədim, müddərdən artıq hərbi xidmət qulluqçusu olmaq istədiyimi bildirdim.

Nə gizlədim, onu da dedim ki, çox dadlı yeməklər bişirirəm. Aşpazam. Əsgərlərimizə dadlı yeməklər bişirməyimlə qürur duyuram. Onlar iştaha ilə yeyəndə, içimdə elə sevinirəm ki...

Arada ermənilər tərpəşir. Onda mən də silaha sarılıram. Bura elə buna görə gəlmişəm. Sakitlik olanda xörək bişirmək, ermənilər baş qaldıranda avtomat tətiyi sıxmaq.

Hərbi xidmətdə əsas, ikinci dərəcəli xidmət növü olmur. Döyüş növbəsinə gedən-gələn əsgər sənin bişirdiyin xörəklərdən razı qalırsa, deməli, gərəklisən, sən yaxşı hərbi qulluqçusan...

Bir dəfə əsgərlər yarpaq dolması istədilər. Anbarımızda yarpaq yox idi. Hərbi hissəyə gələn qardaşımdan yarpaq gətirməsini xahiş elədim. Gətirdi. Komandirdən icazə alıb yarpaq dolması bişirdim. Əziyyətli də olsa, həvəslə bişirdim.

Ali Baş Komandanımızın, Müdafiə nazirinin döyüş bölgələrinə gəlməsi, əsgərlərlə səngərlərdə söhbət eləməsi, onların qayğıları, məişət şəraiti ilə maraqlanması hamımızın ruh yüksəlliyinə səbəb olub.

Səngərlərimizin qənşərində bir yazı hamının diqqətini çəkir. Bu, əsgərlərin gündəlik yaddaşıdır: "Sənin səngərin sənin alınmaz qalandır". Hər bir əsgər bunu yaxşı dərk edir. Əsgərlərimizin hər biri işğalda olan ərazilərimizi geri qaytarmaq üçün Ali Baş Komandanın əmrinə hazırdır. Həmin vaxt mən də onlarla bir sırada olacağam...

Vətən bizdən qələbə gözləyir. Buna görə də qələbəyə can atırıq. Səngərdəki əsgər də, onlara xörək bişirənlər də, komandirlərimiz də, ata-analarımız da...

**Seymur HACIYEV,**
**Müddətdən artıq xidmət edən hərbi qulluqçu**

## Ordu həyatı mənə nə verdi?

***Ağdaşda doğulub boya-başa çatmışam. Orta təhsil almışam. Mən də başqa yaşıdlarım kimi Vətən kəlməsinin nə olduğunu ilkin olaraq bu illərdə anlamışam...***



Mən hərbi xidmətə çağırılanda qohum-qonşu ata-anama gözaydınlığı verməyə gəlirdi. Tay-tuşlarımla başım söhbətə qarışsa da, arada onların söhbətlərini də eşidirdim. Anam bir qədər kövrəlmişdi. Atam özünü toxdaqlı aparırdı. Sevinirdi ki, oğlu hərbi xidmətə gedir. Onda qonşularımızdan biri atama belə demişdi:

- Xoşbəxt atasan, Allaha bir köynək yaxın adamsan. Sağlam oğul böyüdübsən, öz əllərinlə hərbi xidmətə yola salırsan. Sən də, oğlun da camaatın üzünə dik baxacaqsınız. İnşallah, sağ-salamat qayıdıb gələr.

Onda bu sözlərin mənasını çox da dərindən dərk eləməmişdim.

Hərbi xidmətə gəldim. Gördüm ki, ordu həyatı tamam başqa bir dünya imiş. Bir daha əmin oldum ki, ordu həqiqətən bir məktəbdir.

Çox şeyə alışmadığımdan ilk vaxtlar mən də çətinliklərlə üzləşirdim. Onda komandirlərimin məsləhəti, təcrübəli əsgərlərin köməyi, qayğısı dadıma çatırdı. Mən də alışdım. Nəinki alışdım, həm də sevdim. Mənə tapşırılan işi, verilən əmrləri vaxtında və keyfiyyətlə yerinə yetirməyə başladım.

Hərbi xidmətin özəllikləri var. Bu özəlliklərdən başlıcası əsgərə aşıladığı duyğulardır. Onsuz da hamı Vətəni sevir. Hərbi xidmət bu sevgini daha da kükrədir, coşdurur. Bu sevgi əsgərin qanına hopur, varlığına hakim kəsilir. Hərbi xidmətə başlayana kimi boz dağı elə boz daş kimi görürdük. Sonra gördük ki, elə bu boz daş da Vətənin bir zərrəsidir. Vətən adına o boz daşı da qorumalıyıq...

Hərbi xidmət mənə əsl dostluğun nə olduğunu öyrətdi. Burada yaranan, möhkəmlənən dostluq son nəfəsə kimi davam edir. Yəni, bu dostluq elə Vətənin özü kimi müqəddəs olur.

Bir dəfə döyüş növbəsinə getməliydim. Özümü pis hiss edirdim. Vaxta az qalmışdı. Mənə dedilər ki, komandir səni çağırır. Getdim. Komandir mənimlə hal-əhval tutandan sonra "Səni başqa əsgər əvəz edəcək", - dedi. Niyəsini soruşmadım, soruşa bilməzdim. Sonra öyrəndim ki, dostlarımdan biri mənim əhvalımı duyunca komandirdən döyüş növbəsinə onu göndərməyi xahiş edib.

Hərbi xidmət xarakter formalaşdırır, əsgəri mətinləşdirir.

Hərbi xidmət mənim də Vətən sevgimi dərinləşdirdi. El arasında deyildiyi kimi, bir sevirdim, beş sevirəm. Hər oğul Vətənə oğul ola bilmir. Fəxr edirəm ki, Vətənə oğul olan oğullarla çiyin-çiyinə xidmət eləmişəm. Komandirlərimi, əsgər yoldaşlarımı, dostlarımı heç zaman unutmaram.

Bir neçə gündən sonra tərxis olunacağam. Sözün düzü, sevinirəm də, kövrəlirəm də. Vətən üçün lazım olan anda yenə səngərə qayıdacağam. Dostlarım da mənim kimi. Fəxr edirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olmuşam. Fəxr edirəm ki, məhz bu hərbi hissədə xidmət eləmişəm.

**Əsgər**
**Sadıq ƏLƏKBƏROV**

## “Azərbaycan Ordusu” döyüşçülərin gözü ilə...



***Bu dəfə düşmənlə təmas xəttində xidmət edən əsgər və zabitlərlə söhbətimizdə bizi maraqlandıran mövzulardan biri də qəzetimizin oxunaqlı görünməsi üçün arzu və təklifləri öyrənmək idi. Aşağıda adları çəkilən döyüşçülərin fikirlərini olduğu kimi təqdim edirik.***

**Zabit Mais Mirzəyev:**
- "Azərbaycan Ordusu" səngər şəraitində görüşümüzə gələn və ölkənin ictimai-siyasi həyatının, beynəlxalq aləmin yeniliklərini bizə çatdıran doğma qəzetimizdir. Buna görə də qəzetin hər sayını diqqətlə izləyirik. Həmçinin ordu quruculuğunda həyata keçirilən önəmli islahatlar, hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər haqqında bu qəzetin səhifələrində xəbər tuturuq. Cəbhə bölgəsində xidmət etdiyim illərdə dəfələrlə qəzetin əməkdaşları ilə səngərlərdə rastlaşmışam. Sağ olun ki, vaxtaşırı ön xəttə gəlib qayğı və problemlərimizlə maraqlanırsınız.

**Əsgər Şahin Qurbanov:**
- Mən də sizin qəzetin fəal oxucusuyam, burada dərc edilən idman xəbərləri və digər vacib məlumatlarla tanış oluruq. Azərbaycanın hərb tarixindən bəhs edən məqalələri də həvəslə oxuyuruq. Bəzən isə qəzetin səhifələrində əsgər dostlarımın şəkillərinə, onların nümunəvi xidməti ilə bağlı yazılara rast gələndə sevinirəm.

**Gizir Samid Musayev:**
- "Azərbaycan Ordusu" yeganə mətbu oqrandır ki, səngərlərə "ayaq açır", bizim qayğılarımızdan, uğurlarımızdan yazır. Xidmətdə olduğum dövrdə tez-tez qəzetin əməkdaşlarını ön xətdə görmüşəm. Nümunəvi döyüşçülər haqqında dərc etdiyiniz yazılar şəxsi heyətdə ruh yüksəkliyi yaradır. Arzu edərdim ki, ilk qələbə xəbərini də bizə "Azərbaycan Ordusu" çatdırsın.

**Əsgər Kənan Qurbanzadə:**
- Asudə vaxtımızı səmərəli keçirmək üçün "Azərbaycan Ordusu"nu oxuyuruq. Çox istərdik ki, qəzetin səhifələrində daha maraqlı yazılara rast gələk. Məsələn, son nömrələrinizdə dərc edilən "Test sualları" bizim üçün çox maraqlıdır. Belə axtarışlarda sizə uğurlar arzulayırıq.

**Baş leytenant Ramil Kərimov:**
- Tabeliyimdə olan şəxsi heyətlə ictimai-siyasi mövzuda keçdiyim məşğələlərdə doğma qəzetimiz bizə yardımçıdır. Vətənimizin tarixi ilə, o cümlədən başqa siyasi əhəmiyyət kəsb edən yazılarınızdan istifadə edirəm.

**Əsgər Cavidan Xəlilov:**
- İdmanla daim maraqlanıram. Ölkəmizin idman yenilikləri barədə məlumatları müntəzəm olaraq "Azərbaycan Ordusu"nun səhifələrində oxumaq istərdik.

*"Azərbaycan Ordusu"nun əməkdaşları olaraq "Dəyirmi masa" söhbətində iştirak edən döyüşçülərə bildirdik ki, onların arzu və təkliflərini, iradlarını səmimi qəbul edirik və bundan sonra qəzetimizin oxunaqlı görünməsi üçün öz səylərimizi əsirgəməyəcəyik.*

Səhifəni hazırladılar:
mayor Arif PƏNAHOV və Rəşid FAXRALI,
"Azərbaycan Ordusu"

*Təlim*

# Xidmətə məsuliyyətlə yanaşanda...



***"N" hərbi hissəsinə çatanda burada naryadda dayanmış əsgər bizi qarşıladı. Gəlişimiz barədə hərbi hissə komandirinə məlumat verildikdən sonra əraziyə daxil olduq. Elə ilk addımdan buradakı səliqə-sahman, təmizlik diqqətimizi cəlb etdi.***



Qərargahda ilk olaraq zabit Qorxmaz Əbilovla görüşdük. Söhbət zamanı o bildirdi ki, hərbi hissənin şəxsi heyəti torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanaraq yurdumuzu erməni işğalçılarından qoruyur. Zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Buna görə də atəşkəs rejimini pozmağa cəhd edən düşmənin qarşısı qətiyyətlə alınır. Erməni qəsbkarları hər addımda əsgərlərimizin sərrast atəşləri ilə üz-üzə qalaraq geri çəkilirlər. Zabit və əsgərlərimiz qoynunda dünyaya göz açdıqları Vətən torpaqlarına ürəkdən bağlıdırlar. Yurdumuzun keşiyində ayıq-sayıq dayanan oğullarla hamımız fəxr edib öyünürük. Son hadisələr zamanı zabit və əsgərlərimiz böyük hünər göstərərək torpaqlarımıza hücum edən erməni qəsbkarlarına ciddi müqavimət göstərdilər. İşğalçılıq planı puç olan düşmən ağır itki verib geri çəkildi. Bütün bunlar bir daha göstərdi ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an düşmən hücumlarının qarşısını almağa və torpaqlarımızı yağılardan azad etməyə hazırdırlar.

Zabitlə söhbətdən sonra ürəyim dağa döndü. Torpaqlarımızın keşiyində dayanan zabit və əsgərlərimizə əhsən dedim.

Qərargahda çox ləngimədik. Maşın çıxışa hazır olan kimi zabit Elmar Zeynalabdinovla təlim meydanına yollandıq. Məqsədimiz şəxsi heyətin döyüş hazırlıqlarını artırmaq üçün keçirilən dərs və məşğələləri yaxından izləmək idi.

- Şəxsi heyət əldə etdikləri ugurlarla arxayınlaşmadan daim məşq edir, döyüş hazırlıqlarını və təcrübələrini artırır, - deyə yol yoldaşım olan zabit bildirdi: - Əsgərlər təlimin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırlar. Şəxsi heyətin təkcə fiziki deyil, həm də mənəvi-psixoloji hazırlığının artırılmasına önəm verilir. Hərbi xidmətdə ilk addımlarını atan gənc əsgərlərlə fərdi söhbət aparır, onlara ordumuz haqqında, həmçinin qarşımızda dayanan mühüm vəzifələr barədə ətraflı məlumat veririk. Fərdi söhbətlər zamanı hiss edirəm ki, gənc əsgərlər yurda ürəkdən bağlıdırlar. Onlar qoynunda göz açdıqları Vətən torpaqlarını qorumağa hər an hazırdırlar. Bu ali hisslə yaşayan əsgərlər dərs və məşğələlərdə fəal iştirak edərək hərbi bilikləri, döyüş vərdişlərini həvəslə mənimsəyirlər. Hər kəs yaxşı bilir ki, hazırlığı yüksək olan əsgər döyüş meydanından qələbə ilə dönər.

Beləcə, söhbət edə-edə təlim meydanında məşqələ keçən şəxsi heyətin yanına çatdıq. Məşğələnin gərgin anları idi. Əsgərlər verilən komandaları yerinə yetirmək üçün cəld və çevik hərəkətlər edirdilər.



İlk olaraq gizir Şahin Məsimovla görüşüb söhbət etdik. O bildirdi ki, kəşfiyyat ixtisası həm çətin, həm də şərəflidir. Çətinlikdən qorxmayan əsgərlər bu peşənin sirlərinə həvəslə yiyələnirlər. Dərs və məşğələ prosesində biz kəşfiyyatçılara həsr olunmuş kino-filmlərdən də istifadə edirik. Əsgərlər bu filmlərə maraqla baxırlar. Təlimlərdə də həmin filmlərin qəhrəmanlarına oxşamağa çalışırlar. Filmlərin dərs vəsaiti kimi istifadə olunması çox səmərəlidir. Çünki bu zaman əsgərlər kəşfiyyatçıların bütün hərəkətlərini izləyir, tapşırıqları necə yerinə yetirmələrinə diqqət kəsilir. Tədricən kəşfiyyatçı üçün zəruri olan bilik və vərdişləri dərindən mənimsəyirlər. Dərs və məşğələ keçmək üçün komandanlıq əlverişli şərait yaradıb. Çalışırıq ki, bütün məşğələlər döyüş şəraitinə uyğun olaraq keçirilsin.

Əsgərlərimiz hec bir çətinlikdən qorxmadan kəşfiyyatçı ixtisasının sirlərinə yiyələnirlər. Kəşfiyyatçıların gözəl bir devizi var: "Görünmədən görmək-ölmədən dönmək". Kəşfiyyatçı əsgərlərimiz bu devizə həmişə sadiqdirlər.

Baş gizir sonra sözünə davam edərək təlim-məşqlərdə fərqlənən əsgərlərdən də söz açdı. Bildirdi ki, bölükdəki əsgərlərin hamısı tapşırıqların öhdəsindən peşəkarlıqla gəlir. Belələrindən Nəcməddin Əlizadə, Rəşad Rzayev, Sarvan Həsənov, Cahangir Dadaşov, Ağakişi Salamov, Elmin Hüseynzadə, Altay Yusubov, Sadıq Mustafayev və başqalarının adlarını çəkmək istərdim.

- Kəşfiyyatçı olmaq çoxdankı arzum idi, - manqa komandiri çavuş Orxan Məmmədov dedi. - Həmişə kəşfiyyatçıların həyatından, döyüş səhnələrindən bəhs edən filimlərə həvəslə baxırdım. O vaxtlar heç ağlıma gəlməzdi ki, ordu sıralarına çağırılanda mən də kəşfiyyatçı olacağam. Bölgü zamanı kəşfiyyatçılar bölüyünə düşəndə, çox sevindim. Bəziləri kəşfiyyatçı ixtisasının çətin olduğunu qeyd edirlər. Amma xidmətə həvəslə yanaşanda, ona ürəkdən bağlananda bütün çətinliklər arxada qalır. Mən qısa müddətdə kəşfiyyatçı ixtisasına yiyələndim, müxtəlif silahlardan hədəflərə dəqiq atəş açmağı öyrəndim. İlk atış çalışmasında hədəfləri dəqiq vuraraq yaxşı nümunə göstərdim. Bununla da uğurlarımın başlanğıcı qoyuldu. İndi bir vaxtlar təcrübəli zabit və gizirlərdən əxz etdiklərimi ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə də öyrədirəm.

Kəşfiyyatçıların məşğələsi öz ardıcıllığı ilə davam edir. Baş gizir Şahin Məsimov əsgərlərə yeni tapşırıq və göstərişlər verir. Əsgərlər isə cəld hərəkətlərlə tapşırıqları yerinə yetirməyə çalışırlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# XXVIII dərs

*(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

**Suallar:**

**1. Azərbaycan Respublikasının dövlət quruluşu haqqında.**

**2. Azərbaycan Respublikasının iqtisadi inkişafı haqqında.**

**3. Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu.**

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı haqqında məlumat.

İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.

## Azərbaycan Respublikasının dövlət quruluşu haqqında

Azərbaycan Respublikasının Konstitusiyası - dövlətimizin Əsas qanunu ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yeni konstitusiya komissiyası tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqustun 24-də keçirilən referendumda Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti haqqında:

Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir.

Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Azərbaycan xalqı vahiddir. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz Vətənidir.

Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

Siyasi əsaslar:

Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkəmizin daxilində və xarici münasibətlərində Azərbaycan dövlətini təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

Azərbaycan Respublikası Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilələrə riayət olunmasının, məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.

Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Milli Məclisin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

İqtisadi əsaslar:

Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

Təbii ehtiyatlar hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

İqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan Respublikasının pul vahidi manatdır. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətidir.

Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır.

## Azərbaycan Respublikasının iqtisadi inkişafı haqqında

Neft gəlirlərinin düzgün idarə olunması və iqtisadiyyatın digər vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin hökumət qarşısında müəyyənləşdirdiyi mühüm vəzifələrdəndir. Dövlət başçısının çevik və işlək mexanizmlər üzərində gerçəkləşdirdiyi uğurlu sosial-iqtisadi inkişafın nəticəsi olaraq bu gün Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. İldən-ilə ölkəmizin büdcəsi artır, insanların sosial rifahı yaxşılaşır, hərbi qüdrətimiz formalaşır.

## Silahlı Qüvvələrin dövlət institutları arasında yeri və rolu

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra dövlət qurumlarının, o cümlədən Silahlı Qüvvələrin yaradılması zəruri oldu. Bu həm də ölkəmizin erməni təcavüzünə qarşı mübarizə aparması üçün lazım idi. Bir sözlə, Silahlı Qüvvələrin formalaşdırılması üçün hüquqi zəmin yaradılmasına ehtiyac var idi.

Azərbaycan Respublikasının keçmiş ali qanunverici orqanı olan Ali Sovet 9 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanun qəbul etdi və bununla ordunun yaradılması üçün hüquqi təməl yaradıldı. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi. Həmin qanunun 1-ci maddəsində Silahlı Qüvvələrin vəzifələri müəyyən olunur və göstərilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir".

Azərbaycan Silahlı Qüvvələri 1918-ci ildə yaradılmış Cümhuriyyət ordusunun varisidir. Məlumdur ki, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci ilin mayın 22-də imzaladığı fərmanla 26 İyun Silahlı Qüvvələr Günü elan olunmuşdur. Bu, tarixi həqiqətin və milli ordu quruculuğunda varislik ənənələrinin bərpa edilməsi baxımından böyük əhəmiyyətə malik bir hadisədir. Bu gün Silahlı Qüvvələrimizin şəxsi heyəti sələflərimiz tərəfindən başlanan müqəddəs işi layiqincə davam etdirir və müstəqil ölkəmizin ordu quruculuğu tarixinə yeni-yeni parlaq səhifələr yazır.

Azərbaycan Respublikasının Əsas qanununda - Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətənin müdafiəsi ilə bağlı maddələr öz əksini tapmışdır.

Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir. 76-cı maddədə isə Vətəni müdafiənin hər bir vətəndaşın borcu olduğu, onların qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməsi vurğulanır. Silahlı Qüvvələrin fəaliyyətini hərtərəfli tənzimləmək üçün bir qanunun yox, qanunlar toplusunun qəbul edilməsi vacibdir. Odur ki, Azərbaycan Respublikasının Milli Məclisi sonrakı illərdə bir-birinin ardınca qanunlar qəbul etdi və onları təkmilləşdirmək məqsədilə əvvəllər qəbul edilmiş hüquqi aktlara dəyişiklik və əlavələr etdi. Bu baxımdan 10 iyun 1992-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsaslarını, gənclərin hərbi xidmətə hazırlıq qaydalarını, hərbi xidmətə çağırışın qaydalarını və şərtlərini, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydalarını, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsaslarını müəyyənləşdirmək və həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq təsbit edilir. Belə ki, qanunla müəyyən edilmiş hədlərdə və növlərdə hərbi xidmət Azərbaycan vətəndaşları üçün məcburidir. 18 yaşına çatan və səhhətinə görə hərbi xidmətə yarayan kişi cinsindən olan hər bir vətəndaş ordu sıralarında 18 ay müddətində həqiqi hərbi xidmət keçməlidir.

Bu gün Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunmuş, ordunun zabit kadrları ilə komplektləşməsinə, hissə və birləşmələrin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə imkanlar yaradılmışdır.

Quru Qoşunları, Hərbi Dəniz, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının birləşmə və bölmələrində şəxsi heyətin intizamı yüksəlmiş, hərbi nizamnamələrin tələblərinə riayət olunması bərpa edilmişdir. Bütün bunlar orduya çağırılan gənclərin az bir müddətdə əsl hərbçi kimi hazırlanmasına və formalaşmasına imkan yaratmışdır. Müxtəlif hərbi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün təlim mərkəzlərində gərgin işlər aparılmış, lazımi maddi-texniki baza və şərait yaradılmışdır.

Azərbaycan Ali Hərbi Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində müasir standartlara cavab verən tədris bazası mövcuddur. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Gizirlər Məktəbi və zabitlərin təkmilləşdirilməsi kursları fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı fərmana əsasən, Hərbi Akademiya fəaliyyətə başlamışdır.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və taktiki təlimlər, dərslər keçirilir, döyüş hazırlığı yüksək səviyyədə saxlanılır.

Əldə olunan nəticələr bir daha sübut edir ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Silahlı Qüvvələrimizin möhkəmlənməsinə və peşəkarlığına xidmət edir.

Azərbaycan Respublikasının 1994-cü ilin may ayında NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulması NATO ilə əməkdaşlıqda yeni bir mərhələ idi. Silahlı Qüvvələrimizdə sülhməramlı tabor yaradılmış və bu taborun bir taqımı müxtəlif vaxtlarda Türkiyə taborunun tərkibində Kosovoda, bir bölüyü isə İraqda beynəlxalq sülhyaratma missiyasını müvəffəqiyyətlə yerinə yetirib. Hazırda bir bölüyümüz Əfqanıstanda Türkiyə taborunun tərkibində xidmətini uğurla davam etdirməkdədir.

1991-1993-cü illərdə Azərbaycan torpaqlarının 20 faizi düşmən tərəfindən işğal edilib. Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında respublikamızın ərazi bütövlüyünün bərpası üçün bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də çox böyük işlər görmüşdür. Məlum olduğu kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri məşğul olur. Onların göstərdiyi səylərə baxmayaraq, hələ də münaqişənin həllində bir nəticə əldə edilməmişdir. Ermənistanın dövlət rəhbərliyinin destruktiv mövqe tutması onun münaqişənin həllinin uzadılmasında maraqlı olduğunu açıq-aşkar göstərir. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistan prezidenti ilə apardığı danışıqlarda nümayiş etdirdiyi qəti mövqe, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb etməsi Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətini də yeni uğurlara ruhlandırır.

Azərbaycan Prezidentinin dediyi "Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Torpaq məsələsində düşmənə heç bir güzəşt edilməyəcəkdir", - sözlərini Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti Ali Baş Komandanın əmri kimi qəbul etmişdir. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin qarşısında torpaqlarımızı azad etmək üçün hər an hazır olmaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Dövlət Bayrağı Meydanına səyahət



Xalqımızın qürurverici keçmişinin təkzibedilməz faktlar əsasında öyrədilməsi, tarixi inkişafında qazandığı nailiyyətlərə və dövlət rəmzlərinə sevginin aşılanması hərbi qulluqçuların vətənpərvərlik tərbiyəsində önəmli vasitələrdən hesab edilir. Bunlar əslində döyüşçülərdə vətəndaşlıq, Vətən naminə fədakarlığa hazırlıq, hərbi borca sadiqlik kimi yüksək mənəvi keyfiyyətlər formalaşdırır. Qəhrəmanlıq keçmişimizi özündə yaşadan tarixi yerlərə gəzintilərin, muzeylərə ekskursiyaların təşkili əsgərlərin bütövlükdə dünyagörüşünə böyük təsir göstərir. Bu baxımdan "N" hərbi hissəsinin şəxsi heyətlə bilavasitə işləyən zabitlərinin fəaliyyəti diqqətəlayiqdir.

Tez-tez xalqımızın qəhrəmanlıq keçmişilə təmas yaratmaq məqsədilə döyüşçülərin muzeylərə, tarixi yerlərə gəzintilərini təşkil edən zabitlər bu dəfə tabeliyindəki şəxsi heyətlə paytaxtımızın ən görməli yerlərindən olan Dövlət Bayrağı Meydanına üz tutmuşdular.

- Bakının Bayıl qəsəbəsində yerləşən və paytaxtımıza xüsusi gözəllik verən memorial abidə-istirahət parkı təkcə şəhərimizin sakinləri və qonaqlarının teztez gəldiyi yer deyil, - bizimlə söhbətində zabit Elxan Nəsirov söylədi. - Dövlət Bayrağı Meydanı cəmiyyətimizin ən vətənsevər zümrəsi olan hərbi qulluqçuların da mütəmadi üz tutduğu məkandır. Döyüşçülərdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq şəxsi heyətimizi buraya gətirməyi qabaqcadan planlaşdırmışdıq. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçuları fərqləndirərək bu gəzintiyə gətirdik.

Onu da qeyd etməyə dəyər ki, 2 min kvadrat metr ərazisi olan Dövlət Bayrağı Meydanında ucaldılmış dayağın hündürlüyü 162 metrdir. İftixaredici məqamlardan biri də odur ki, "Ginnes" dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı dirəyini dünyada ən hündür bayraq dirəyi kimi qeydə alıb. Burada şəhərin bir çox yerindən görünən möhtəşəm üçrəngli bayrağımızın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, kütləsi isə təqribən 350 kiloqramdır.



Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış büründən hazırlanıb.

Döyüşçülər həm də burada yaradılmış Dövlət Bayrağı Muzeyində də olmuşlar.

Maraqlıdır ki, tarixən çoxsaylı dövlətlər qurmuş Azərbaycanın qədimdən bu vaxtadək nə qədər bayraq, gerb nümunələri olubsa, onlar məhz bu muzeydə sərgilənir və muzeyə gələnlərə ölkənin atributları, yəni, bayraq, gerb, himn haqqında ətraflı məlumatlar verilir. Burada həmçinin dövlətimizin orden və medalları da yüksək səviyyədə sərgilənir.

- Dövlət Bayrağı Meydanında gördükləri nümunəvi əsgərlərin dərin marağına səbəb oldu, - zabit Elxan Nəsirov bildirdi. - Onlarda bu gəzinti zəngin təəssürat yaratdı və iftixaredici duyğular oyatdı.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Poetik işığın zərrələri

***Şeir poetikadır. Həm də bu və ya digər mətləbin söz təsviridir. Nəzmlə poeziyanı da məhz bu xüsusiyyət fərqləndirir. Poeziya görünən görünməzləri duymaq, görmək, duyub-görüb sözlə təsvir eləmək məharətidi.***

Qurbani ilkin yazda dəfələrlə gördüyümüz bənövşənin bənzərsiz duruşunu sözlə bir ayrı biçim nəzmə çəkmişdi:

*İntizarmı çəkib boynu əyridi,*
*Heç yerdə görmədim*
*düz bənövşəni.*

Nərgizin - gözəllik rəmzinin

*Gözəllik sultanı olan Nərgizi*
*Tanrı Yer üzünə mükafat verib, -*

kimi təqdimi duyğulara sığal çəkir.

Qışda dağdan aşan şəlalənin

*Dağ çayı saçından dara çəkilib, -*

kimi sözlə təsviri heyrətləndiricidir...

Poeziya bunlardı, yüzlərlə, minlərlə bu qəbil nümunələrdi...

Təvəkgül Ənvərqızının yaradıcılığında da nümunə gətiriləsi misralar çoxdu...

Təvəkgül Ənvərqızı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müəllimidir. İngilis dili ilə bir sırada poeziyanın imkanlarından bəhrələnməklə kursantların vətənpərvərlik duyğularını Vətənin arzuladığı məcraya yönəldə bilən ziyalımızın duyğuları, şeirləri təbiətlə insanın poetik vəhdəti kimi təqdim olunur; insan təbiətin bir hissəsidir: buludlu, tutqun hava - insanın ürəyinin qayğılarla yüklənməsi, yazda çölün-düzün gözəllik sərgisinə dönməsi - insanın sevincinin aşıb-daşması, insanın əsəbiliyi, yağış yağması - insanın kövrəkliyi...

Təvəkgül Ənvərqızının şeirləri səmimiliyi ilə səciyyəvidir, özünəməxsusluğu ilə seçilir. "Qəhər udan, dilində ağılar bitən nənələrin" ("Xocalı dərdi") dərdini öz dərdi bilən, işğal altında qalan kəndlərini azad eləmək üçün "növbəti şəhidin mən olacağam" ("Qərvəndim") deyən, muğam ocağının əsirlikdə qalmasına yanıb-yaxılan ("Şuşa həsrəti"), "dünyaya səyahət eləmək imkanı olsa da, Ağdama gedə bilməmək" əndişəsi yaşayan ("Vətən həsrəti") şairin şeirlərini duyğularına necə üzərlik bilməyəsən? "Kursantlara" şeiri ilə "Qoru



Vətənini, qoru elini" şeiri arasında məntiqi bir bağlılıq var. Digər tərəfdən, zamanında kursant da döyüşçüdü və o da Vətən üçün can əsirgəməz. Bu qənaət, şübhəsiz ki, şair qürurudu.

Təvəkgül Ənvərqızının yaradıcılığında həsrət iki məqamla bağlıdır: yurd həsrəti və bütün duyğuların fövqündə dayanan sevgidən gələn həsrət. Şair hər ikisini varlığına hopdurur ki, bu da kövrək misraların, bəndlərin yazılması üçün stimul olur.

Təvəkgül Ənvərqızının sevgi şeirləri də diqqəti çəkir. Sevgi varsa, həsrət də var. Sevməyi bacaran (sevən) həsrətə dözməyi də bacarmalıdı. Həm də,

*Gəl yenə bəzək ver*
*qalan ömrümə,*
*Solmaz güllərimin şehi,*
*hardasan?*
*Məni yaşadacaq*
*bir udum havan,*
*Gəl ey həyatımın mehi,*
*hardasan?*

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Fransa ordusunda yeni qumbaraatan olacaq

Kütləvi informasiya vasitələrinin verdiyi məlumata görə, yaxın gələcəkdə Fransanın Silahlı Qüvvələrində müxtəlif müasir zirehli texnikanı məhv etməyə qadir olan modernləşdirilmiş raket kompleksi hazırlanacaq. Hazırda Fransa ordusunda tankəleyhinə köhnəlmiş "Milan" raket kompleksindən istifadə edilir. Bir çox hərbi ekspertlər mövcud kompleksin ağır texnikaya qarşı ən güclü silah növündən biri olduğunu hesab edirlər. İndi isə bu silah öz aktuallığını itirib. Bunu nəzərə alaraq Fransanın Silahlı Qüvvələri 2017-ci ildən başlayaraq öz qoşunlarını MMP adı altında tankəleyhinə silah sistemi ilə təchiz etmək niyyətindədir. 2017-ci ilin əvvəlində Fransa ordusu 400 ədəd yeni buraxıcı qurğu ilə təchiz ediləcək.

## Özüyeriyən robot-pulemyotçular

Amerika hərbçiləri döyüşçü robotlardan istifadə etmək niyyətindədirlər. Bu yaxınlarda Fort Beninqində yerləşən hərbi bazada iri kommersiya təşkilatları tərəfindən yeni pulemyotçu-robot nümunələri nümayiş etdirilib. Bazada keçirilən prezentasiya zamanı çoxlu sayda mexaniki əsgərlər nimayəndələrə gostərilib. Nümunələrdən biri olan tırtıllı robot əlindəki pulemyotla 150 metr uzaqlıqda yerləşən hədəfə yüksək dəqiqliklə atəş aça bilib. Bundan başqa ərazidə yerləşdirilmiş robot maşınların necə ağır yüklər daşıdığı, meşə ərazisində hec bir adamın iştirakı olmadan təkcə manevr etməsi də göstərilib. SD Robots korporasiyasının təsisçisi Skott Xarli on ildən sonra ABŞ SQ-də əsgərləri gələcəyin döyüş robotları əvəz edəcəyini bildirib. Gələcəkdə bu robotlar tamamilə insanları əvəz edə biləcək. Onlar hərbi bazaları qoruyacaq, düşmənə qarşı vuruşacaq, yaralıları döyüş sahəsindən çıxaracaq, yükləri daşıyacaq və s. işləri yerinə yetirəcəklər.

## Kosmosa Xayabus-2 adlı zond göndəriləcək

Yaponiyanın kosmik tədqiqatlar üzrə mütəxəssisləri asteroidləri izləmək və göy cisimləri haqqında məlumat əldə etmək üçün bu ildən gec olmayaraq kosmosa kosmik zond göndərəcəklər. Xayabus-2 adlı zond kosmosa raket vasitəsilə 1999JU3 asterodinə çatmaq üçün dörd il müddətinə səyahət edəcək. Təqribən 2018-ci ildə zond asteroidə catacaq. Zond kosmosa çatandan sonra iri topdan istifadə edəcək və metal mərmi ilə asteroidin üst qatındakı boşluğa atəş açacaq. Özü isə təhlükəsiz bir ərazidə yerləşəcək. Sonra o, atəş nəticəsində əldə olunan materialı toplamaq üçün qayıdacaq. 1999JU3 asteroidinin diametri bir kilometr təşkil edir və çoxlu sayda su və üzvi maddələrdən ibarətdir. Əldə olunan qiymətli material dünyaya Günəş sistemini əhatə edənlər haqqında çoxlu sirrlər açacaq.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**

# Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində də təkrarlamaq imkanınız var. Bu imkanı sizlərə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq (tarix, ədəbiyyat, mədəniyyət üzrə). Növbəti həftəyə kimi göndərilən cavablar nəzərə alınacaq. Gecikənlər (poçt göndərişinin üzərindəki möhürə əsasən) nəzərə alınmayacaq.*




*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

**1. Girdman qalası nə vaxt tikilib?**

a) 605-615
b) 600-615
c) 600-610
d) 615-625

**2. Babək neçənci ildə edam edilib?**

a) 838
b) 836
c) 837
d) 839

**3. Şəki Səfəvilər dövlətinə neçənci ildə birləşdirilib?**

a) 1515
b) 1525
c) 1551
d) 1550

**4. Bayat qalası neçənci ildə tikilib?**

a) 1751-1752
b) 1754-1755
c) 1756-1757
d) 1755-1756

**5. Qori seminariyasının Azərbaycan bölməsi neçənci ildə açılıb?**

a) 1869
b) 1897
c) 1879
d) 1870

**6. Addımla yerişin normal sürəti nə qədərdir?**

a) 100-110 addım
b) 110-120 addım
c) 115-125 addım
d) 120-125 addım

**7. Yüyürərək yerişin normal sürəti nə qədərdir?**

a) 155-165 addım
b) 165-175 addım
c) 170-180 addım
d) 165-180 addım

**8. Sıra addımı ilə yeriyərkən pəncəsi qabağa dartılmış ayaq yerdən nə qədər qaldırılmalıdır?**

a) 10-15 sm
b) 15-20 sm
c) 20-25 sm
d) 25-30 sm

**9. Bir cərgədə ən azı neçə nəfər olur?**

a) 5
b) 4
c) 6
d) 3

**10. Döyüş bayrağını aparmaq üçün çiyin qayışının eni nə qədər olur?**

a) 80 mm
b) 70 mm
c) 90 mm
d) 100 mm

**11. Yerişdə addımın ölçüsü nə qədər olmalıdır?**

a) 85-95 sm
b) 70-80 sm
c) 60-70 sm
d) 65-75 sm

**12. Əsgərin həbsi kimə həvalə edilir?**

a) bölük çavuşu
b) taqım komandiri
c) gün növbətçisi
d) bölük komandiri

**13. Bölüyün baş çavuşu əsgərə neçə xidmət naryadı verə bilər?**

a) 1
b) 2
c) 4
d) 3

**14. Əsgərin həbs kağızını kim imzalayır?**

a) bölük komandiri
b) tabor komandiri
c) hərbi hissə komandiri
d) qərargah rəisi

**15. Azərbaycanın ilk xalq şairi kimdir?**

a) Rəsul Rza
b) Süleyman Rüstəm
c) Səməd Vurğun
d) Məmməd Rahim

**16. "Bir gəncin manifesti" əsərinin müəllifi kimdir?**

a) Süleyman Rəhimov
b) Mirzə İbrahimov
c) Mir Cəlal
d) Əli Vəliyev

**17. Hansı Azərbaycan şairi 1494-1556-cı illərdə yaşamışdır?**

a) İmadəddin Nəsimi
b) Məhəmməd Füzuli
c) Fələki Şirvani
d) Seyid Əzim Şirvani

**18. Muğanda Nadir şahın tacqoyma mərasimi neçənci ildə olub?**

a) 1734
b) 1735
c) 1733
d) 1736

**19. 1796-cı ildə Bakı xanlığının neçə kəndi var idi?**

a) 32
b) 34
c) 36
d) 40

**20. Y.Bertels hansı Azərbaycan şairini XVII əsrin Hafizi adlandırıb?**

a) Qətran Təbrizi
b) Saib Təbrizi
c) Nizami Gəncəvi
d) Məhsəti Gəncəvi.

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## AOK-un prezidenti "Bakı-2015"-ə hazırlığı yüksək qiymətləndirib

Bakıya növbəti səfəri zamanı "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsi (BEGOC) tərəfindən Avropa Olimpiya Komitəsinin (AOK) prezidenti Patrik Hikkiyə hazırlıq işlərinin gedişi barədə məlumat verilib.

Patrik Hikki deyib: "Bakı-2015" komandası tərəfindən son aylarda əldə edilmiş belə əhəmiyyətli irəliləyişi görmək məni hədsiz dərəcədə ruhlandırdı. Əminəm ki, "Bakı-2015" bütün dünya üzrə çoxnövlü idman yarışları standartını yaradacaq ilk Avropa Oyunlarının innovativ və mükəmməl surətdə keçirilməsi ilə bağlı gözləntilərimizi doğruldacaq".

Qeyd edək ki, gələn il iyunun 12-dən 28-dək keçiriləcək birinci Avropa Oyunlarında ümumilikdə 20 idman növü üzrə altı mindən artıq idmançı birincilik uğrunda mübarizə aparacaq.

## Azərbaycan gimnastı İzmirdə keçirilən 33-cü dünya çempionatının finalında



Türkiyənin İzmir şəhərində keçirilən bədii gimnastika üzrə 33-cü dünya çempionatında Azərbaycan idmançıları da qüvvələrini sınayıblar.

Azərbaycan Gimnastika Federasiyasının baş katibi Fərid Qayıbovun verdiyi məlumata görə, gimnastlarımız Marina Durunda, Gülsüm Şəfizadə və Nilufər Niftalıyeva top və halqa ilə yarışlarda çıxış ediblər.

Marina Durunda hər iki növ yarışda finala yüksəlib. O, halqa ilə 6-cı, top ilə 7-ci yeri tutub.

## Qadın voleybolçularımız dünya çempionatına qələbə ilə başlayıb



Voleybol üzrə qadınlardan ibarət milli komandamız İtaliyada təşkil olunan dünya çempionatında ilk görüşünü qələbə ilə başa vurub. "D" qrupunda mübarizə aparan komandamız Yaponiya millisinə 3:2 hesabı ilə qalib gəlib. Qeyd edək ki, yığmamız Yaponiya, Çin, Puerto-Riko, Belçika, Kuba komandaları ilə bir qrupda yarışır.

Qrup mərhələsində birinci dörd komanda növbəti mərhələyə yüksələcəkdir.

## Azərbaycan cüdoçusu Avropa çempionatında gümüş medal qazanıb

Rumıniyanın paytaxtı Buxarestdə gənc cüdoçular arasında Avropa çempionatı başa çatıb. AzərTAc xəbər verir ki, yarışa 10 idmançı ilə yollanan Azərbaycan millisi 1 gümüş medal qazanıb. Bu mükafatı komandamıza 90 kiloqram çəki dərəcəsində mübarizə aparan Firudin Dadaşov qazandırıb. O, finalda gürcüstanlı Beka Qviniaşviliyə məğlub olaraq gümüş medalla kifayətlənib. Qeyd edək ki, millimiz komanda hesabında 40 ölkə arasında 18-ci yeri tutub.

## İdman dırmanması üzrə açıq respublika çempionatı başa çatıb



"ClimBaku" İdman Dırmanması Mərkəzində keçirilən idman dırmanması üzrə açıq respublika çempionatı başa çatıb.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən yarışların sonunda qaliblər müəyyən olunub. Kişi atletlərin sürət üzrə final mərhələsində Babək İbadov ("Ekosport"), kişi atletlərin boulderinq üzrə final mərhələsində Vahid Bayramlı ("Qərb Universiteti"), qadın atletlərin sürət üzrə final mərhələsində isə Aysel Sultanova ("Gömrükçü") və qadın atletlərin boulderinq üzrə final mərhələsində Könül Hüseynova ("Kyanit") qalib adını qazanmışlar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Baş gizir Rzayev Fikrət Paşa oğluna 2001-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 307
Nüsxə 4570